## Vidadi **BABANLI**



Cənab Prezident, ömrümün bütöv bir hissəsini Azərbaycan ədəbiyyatına xidmətlərə həsr edərək, bu gün də öz missiyamı layiqincə həyata keçirməyə çalışıram. Ötən 70 ildən çox müddət ərzində Azərbaycan və dünya ədəbiyyatında baş verən hadisələrin canlı şahidi olaraq ədəbiyyatımızın hansı yaradıcılıq və mübarizə mərhələlərindən keçib gəldiyini öz gözlərimlə gördüyümdən heç vaxt yazdıqlarıma görə hansısa fəxri ada, mükafata iddialı olmayaraq, oxucu məmnunluğunu qazanmış yazıçı xoşbəxtliyi ilə yaşamışam.

Siz 95 illik yubiley yaşımda məni Azərbaycan ədəbiyyatının inkişafında xidmətlərim qarşılığında "Şərəf" ordeni ilə təltif etməklə öz aliliyinizi, böyük Heydər Əliyev irsinə sadiqliyinizi bir daha nümayiş etdirmiş oldunuz. Bu mükafatı əməyimə, ədəbiyyatımıza, ədəbiyyat adamına verilən ən böyük dəyər hesab edirəm.

Ömrünü daim şərəf və ləyaqətlə yaşamış bir ziyalı kimi, ölkəmizdə gedən uğurlu inkişafı, işıqlı gələcəyi gördükcə böyük qürur hissi keçirirəm. Bizim gələcəyimiz ona görə işıqlıdır ki, çəkilən hər bir əməyə xüsusi diqqət yetirilir. Mən də əməyim müqabilində təltif olunduğum "Şərəf" ordeninin şərəfini qalibiyyət qazanmış Azərbaycan xalqı ilə bölüşürəm.

Sizin sərkərdəliyiniz, Ordumuzun gücü, xalqımızın qüdrəti ilə Vətən müharibəsində qalib gəldikdən sonra Şuşa şəhərini mədəniyyət paytaxtı, 2022-ci ili "Şuşa İli" elan etməklə ədəbiyyatımız qarşısında da yeni və mükəmməl bir istiqamətin təməlini qoymuş oldunuz. Vətənimizin incisi olan Şuşada dəfələrlə olmuşam və onun gözəlliyindən, əzəmətindən doymamışam. Əminəm ki, bundan sonra Şuşa Sizin sayənizdə daha da gözəlləşəcək, daha da qüdrətlənəcək və yeni nəsil şair və yazıçıların əsərlərinə köçərək tarixləşəcək.

Əziz Prezidentim, mənim yaradıcılığıma və şəxsimə göstərdiyinz diqqət və qayğıya görə Sizə bir daha öz adımdan, ailəm adından, oxucularım adından və Qazax mahalının qədirbilən insanları adından minnətdarlığımı bildirirəm.

Göstərdiyiniz bu etimad məni daha da həvəsə gətirərək, bu yaşımda da şövqlə yazmağa səsləyir.

Hörmətlə,

Əməkdar incəsənət xadimi, yazıçı, şair Vidadi Babanlı.

Ədəbiyyat qəzeti.- 15 yanvar.- 2022- ci il.- S. 2.